PEDAQOGİKA

UOT 371

# DƏRS TƏLİMİN ƏSAS TƏŞKİLİ FORMASI KİMİ

**Aysel ƏMİROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 15 oktyabr 2024; çapa qəbul edilmişdir: 13 noyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.
Received: 15th of October, 2024; accepted: 13th of November, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *dərs, təlim, pedaqoji proses, sinif, forma*

## Giriş

Təlim prosesi, təhsil sisteminin təməl daşı olmaqla, şagirdlərə bilik, bacarıq və vərdişlərin qazandırılmasında əsas vasitə kimi mühüm rol oynayır. Bu proses yalnız akademik biliklərin ötürülməsi ilə kifayətlənmir; eyni zamanda, şagirdlərin şəxsiyyətlərinin inkişafına, sosial və emosional bacarıqlarının formalaşdırılmasına da xidmət edir (1, s. 5). Müasir təhsil sistemində, təlim yalnız mühazirələrdən ibarət olmayıb, şagirdlərin aktiv iştirakını təmin edən interaktiv metodlar və praktiki fəaliyyətlərlə zənginləşdirilmişdir (2, s. 12).

Təlim prosesinin əsas məqsədi, şagirdlərin müstəqil düşünmə, kritik analiz və yaradıcı problem həll etmə qabiliyyətlərini inkişaf etdirməkdir (4, s. 20). Bu, müəllim və şagird arasında qarşılıqlı əlaqəni gücləndirərək, tədris mühitini daha motivasiyaedici edir. Şagirdlərin fəal iştirakını təmin edən qrup işləri, müzakirələr və layihələr, onların əməkdaşlıq bacarıqlarını inkişaf etdirir (5, s. 15). Həmçinin, bu cür mühit, şagirdlərin öz fikirlərini ifadə etməyə, başqalarının fikirlərini dinləməyə və yeni perspektivlər qazanmağa kömək edir (5, s. 30).

Müasir dövrdə təlim texnologiyalarının inkişafı və yeni pedaqoji yanaşmalar, təlim prosesinə daha çox yeniliklər gətirərək, onun effektivliyini artırır (4, s. 8). İnteraktiv metodlar, texnoloji vasitələrin tətbiqi və tələbəyönümlü yanaşmalar, şagirdlərin tədrisə marağını artıraraq, onların daha dərindən öyrənməsinə imkan yaradır (2, s. 22). Məsələn, rəqəmsal resursların istifadəsi, şagirdlərin öz sürətlərinə uyğun şəkildə öyrənmələrinə şərait yaradır, bu da onların özlərinə inamını artırır (3, s. 19). Eyni zamanda, virtual siniflər və onlayn platformalar, müxtəlif öyrənmə üslublarına uyğunlaşaraq daha geniş bir auditoriyaya xidmət edir (5, s. 25).

## 1. Təlimin əsas təşkili forması

Təlim-pedaqoji ədəbiyyatlarda müstəqil pedaqoji proses olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmə anlayışının həyata keçirilməsi kimi izah olunmaqla yanaşı, təlimin tərbiyə ilə vəhdətdə olması da qeyd olunur və qətiyyətlə bildirilir ki, təlim yalnız bilik,

* *magistrant, Bakı Qızlar Universiteti*
*e-mail:* ayselamirova10@gmail.com
**https://doi.org/10.30546/25194011.2024.13.5.0183**

bacarıq və vərdişləri, tərbiyə isə əxlaqi anlayışları formalaşdırır. Təlim məqsədyönlü fəaliyyət olaraq əsasən bu prosesi idarə edən tərəflə uşaqlar arasında mövcud olan və qismən müstəqil həyata keçirilən əməli fəaliyyətdir. Təlimin əsas məqsədi uşaqların real gerçəkliyə uyğunlaşmasını təmin etməkdən, habelə müxtəlif vəziyyətlərdən baş çıxarmaqdan, onları əmək fəaliyyətinə sosial həyata hazırlamaqdan ibarətdir (5, s.10). Təlimin təşkilati formaları onun daha səmərəli nəticə verməyinə şərait yaradır. Təlimi təşkil edən formaları müəyyən tarixi inkişaf yolu keçmiş təlim növlərinə əsaslanır. Sinif-dərs sistemi ən geniş yayılmış təlim formasıdır. Bu sistemin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Eyni yaş dövrünə, eyni hazırlıq səviyyəsinə aid şagirdlərin sabit tərkibi;
- Hər bir sinifdə təlimin illik plan əsasında aparılması;
- Təlim prosesi bir-biri ilə qarşılıqlı əlaqədə olan hissələrin ardıcıllıqla baş verməsi əsasında həyata keçirilir;
- Hər bir dərs müəyyən fənnə aiddir;
- Müəllimin aparıcı rolu;
- Şagirdlərin əmək istirahətinin növbələşdirilməsi.

Təlim iş prosesidir-dərsin gedişidir. Ümumtəhsil məktəblərində təlim və tərbiyənin əsas təşkilat forması dərsdir. Dərs təlim prosesində mühüm yer tutur. Dərs təlim anlayışı olaraq həm təhsilin, həmdə tərbiyənin həyata keçirilməsinin əsas təşkilat formasıdır. Təlimin bütün cəhətləri dərsdə əks olunur. Dərs müəllim rəhbərliyi ilə, möhkəm şagird həyatinə malik siniflə, sabit cədvəl üzrə keçirilən kollektiv məşğələyə deyilir. Dərsi təşkil etmək üçün özündə bir sıra əlamətləri birləşdirir:

- Dərs müəllimin rəhbərliyi altında keçirilir;
- Dərs sinif şəraitində keçirilir;
- Dərsdə, məcburi məşğələ kimi, bütün sinif şagirdləri iştirak edir;
- Dərs sabit məşğələ cədvəli üzrə keçirilir (4, s.7).

Dərsdə hər bir şagirdin fəallığının təşkil edilməsi zəruridir. Bu isə o mənaya gəlir ki, dərsdə şagirdləri fəallığa təhrik edən motivlərə istinad olunmalı, tədris edilən materiala müəllim fəal və yaradıcı münasibətlə yanaşmalı, şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə xüsusi qayğı göstərilməli, onları sualların və problemlərin axtarış həllinə maraq oyatmaq, şagirdlərdə özlərinə tənqidi münasibəti tərbiyə etməli, dərsin ideyası istiqamətinə xüsusi diqqət yetirilməlidir.

Dərsdə müəllim özü fəal olmaqla kifayətlənməməli, şagirdlərin yaradıcı, məntiqi, mücərrəd təfəkkürünün, induktiv, deduktiv, təhlil, tərkib, müqayisə kimi fikiri fəallıq priyomlarının inkişafına şərait yaratmalıdır.

Hər bir dərsin əsas və yardımçı məqsədləri olur. Buna müvafiq olaraq dərsin tipi və quruluşu dərsin əsas məqsədi ilə müəyyən olunur.

Ümumitəhsil məktəblərində bir sıra dərs tiplərindən istifadə olunur:

- mürəkkəb və yaxud qarışıq dərs;
- yeni bilik verən dərs;
- biliklərin möhkəmləndirilməsi dərsləri;
- təkrar və ümumləşdirmə dərsləri;
- yoxlama dərsləri;
- inteqrativ dərslər və s.

Dərsin tipləri anlayışı pedaqogikada müəyyən maraq oyatmış və buna görə də, bir sıra pedaqoji ədəbiyyatlarda, bir sıra pedaqoqlar dərsin tiplərini öz nöqteyi-nəzərindən fərqli cür təsnif etmişdir. S.V.İvanovun dərs tipləri daha çoxdur, İ.N.Kazantsevə görə, dərsin müxtəlif növ məşğələ dərsi, mühazirə, müsahibə dərsi, ekskursiya, kino dərsi və s. digər məşğələ dərsləri vardır.

Akad. M.Mehdizadə və prof. M.Muradxanovun müəyyən etdikləri dərs tipləri yeni bilikləri öyrədən dərs, yeni bilik, bacarıq və vərdişləri yaradan dərs, bilik, bacarıqları və

vərdişləri möhkəmləndirən dərs və s. digərləri daxildir. Müasir dövrdə ənənəvi təlimdən fərqli olaraq, fəal təlimdə mövzuların tədrisi tədqiqat və möhkəmlətmə xarakteri daşıdığından dərslərin aşağıdakı növləri ortaya çıxır:

1. İnduktiv-yeni bilik və bacarıq verən dərs;
2. Deduktiv (bilik və bacarıqların tətbiqinin möhkəmləndirilməsi dərsləri);
3. Qovuşuq tipli dərs (Məzmun və təhlil işlərinin birgə həyata keçirən).

Dərsin tiplərinə aid müxtəlif təsnifatlar ola bilər lakin onların hər birinin əsas oxşar cəhəti dərs şəraitinin səmərəsini yüksəltmək, şagirdlərin dərsə marağını artırmaq, müəllimlərinin işini rahatlaşdırmaq. Dərsdə qarşıya qoyulan məqsədə çatmaq üçün güclü iradə və eyni zamanda çeviklik, hərəkət, incə və zəif həssaslıq, yaranmış psixoloji və pedaqoji vəziyyətlərdən asanlıqla çıxmaq bacarığı böyük ustalıq tələb edir. Elə bu xüsusiyyətləri nəzərə alaraq metodistlər və pedaqoqlar dərsi günəşə bənzətmişlər. Yəni bütün planetlər günəşin ətrafında dövr etdiyi kimi bütün tədris formaları da dərsin ətrafında dövr edir. M.Mehdizadə dərsin təşkili üsullarının tanınmış tədqiqatçılarından biri hesab edilir. Onun fikrincə, dərs təlimin elə hərəki formasıdır ki, təlimin məzmunu, prinsip və metodları ilə təmin olunur, müəllim tərəfindən müəyyən vaxt çərçivəsində planlaşdırılır və tənzim edilir, müəllim-şagird münasibətlərinin birləşməsi forması kimi meydana gəlir (5, s. 20).

Məşğələnin təşkili və keçirilməsində, onun məzmunun müəyyən edilməsində dərsin didaktik əsasları aparıcı rol oynayır. Dərsin didaktik əsaslarının gözlənilməsi dərslərin daha canlı və emosional, səmərəli qurulmasına səbəb olur Dərsin müxtəlif məsələləri, müxtəlif sahələri bütövlükdə dərsin didaktik əsaslarında özünü göstərir. Dərsin hansı formada bütün siniflə (frontal), qrup (sinfi müvəqqəti bir neçə qrupa bölməklə), fərdi (hər şagirdin imkanları nəzərə alınaraq onları işləmək) təşkilin əvvəlcədən müəyyənləşdirilməsi didaktik əsasların seçilməsi və tətbiqini xeyli asanlaşdırır. Təlim tipinin müəyyənləşdirilməsi didaktik əsasların hesaba alınmasını asanlaşdıran başlıca amillərdən biri kimi hesab olunur. Buraya izahlı reprodiktiv, problemli təlim, proqramlaşdırılmış təlim və s. daxildir. Dərsin didaktik əsaslarını nəzərə alarkən aşağıda qeyd olunan iki cəhəti nəzərə almaq lazımdır. Birinci, proqramın ardıcıl olaraq yerinə yetirilməsidir. İkincisi isə, bir sıra didaktik vəzifələrin, yəni biliyin verilməsi, möhkəmləndirilməsi və s. məsələlərin həlli üçün müəllimin səy göstərməsi ilə bağlıdır. Didaktik əsaslar didaktik prinsiplərlə sıx bağlıdır. Dərsdə təlim metodlarının müəyyənləşdirilməsi və seçib istifadə edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu vaxt müəllim interaktiv metodlardan istifadə etməyə çalışır. Müəllim şagirdləri daxilən, psixoloji baxımdan fəallaşdırmağa xüsusi diqqət yetirir. Dərsdə yerinə və faydasına görə sınaqdan çıxmış bütün təlim metodlarından istifadə olunur. Əsasən axtarıcılıq metodlarına (everistik, problemli şərh, tədqiqat, seminar, seminar-mühazirə, interaktiv və s.) istifadə olunur. Şagirdləri düşündürmək, onların zehni fəallığını artırmaq, hər hansı bir problemin həllinə yaradıcı yanaşmağa sövq etmək, axtarışlar aparmaq şəklində olan təlim metodlarının əhəmiyyəti böyükdür. Dərsi düzgün təşkil etmək üçün ona bir sıra tələblər verilir (3, s.7).

## 2. Dərsin əsas funksiyaları

Hər bir dərs təlim prosesinin əsas funksiyalarını yerinə yetirməlidir. Konkret dərsin sistemində yerini və vəzifəsini dəqiq müəyyən etməlidir. Buna uyğun olaraq dərsə verilən tələblərin yerinə yetirilmə xüsusiyyətlərinə görə bir neçə hissəyə ayırmaq olar. Dərsə verilən tələblər çoxdur. Onları iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Dərsə verilən ümumi tələblər təlim prinsiplərində ifadə olunmuşdur. Dərsdə didaktik prinsiplər (həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Xüsusi tələblər isə bilavasitə dərslə bağlı tələblərdir:

1. Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür. Dərsdə təhsil, tərbiyə və inkişaf vəzifələri vəhdətdə həyata keçirilməli, real nəticələr əldə edilməlidir;

2. Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, başlıca məsələlərini, fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli, dərs zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır;

3. Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərs o zaman səmərəli olur ki, müəllim biliyi hazır şəkildə şərh etməsin, şagirdləri fəal axtarışlara cəlb etsin, onların müstəqil fikrini oyatsın. Bu məqsədlə dərsdə problem vəziyyət yaratmaq, evristik müsahibə və diskussiyalar aparmaq, kitab üzərində yaradıcı iş təşkil etmək, təfəkkürə qida verən məntiqi metodlara (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə və s.) istinad etmək yaxşı nəticə verir. İki paralel sinifdə eyni mövzuda, eyni metodik variantda keçilən dərs müxtəlif nəticə verir: bir sinifdə müəllimin dərsi alınır, digərində yox;

4. Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalıdır. Dərs təşkilati mütəşəkkilliyi ilə seçilməlidir: vaxtında başlanmalı, yüksək intizama əsaslanmalı, optimal tempdə olmalı, intensiv qurulmalıdır (yəni az vaxtda yüksək nəticə əldə edilməlidir);

5. Dərsdə əlverişli psixoloji iqlim, müsbət emosional vəziyyət yaradılmalıdır. Dərsin səmərəsi onun emosional mühiti ilə sıx bağlıdır: mənfi emosiyalar (qorxu, inamsızlıq, kədər və s.) şəraitində keçən dərs cansıxıcı, yorucu və səmərəsiz olur. Dərsdə müəllim və şagirdlər arasında qarşılıqlı hörmət, inam, pedaqoji əməkdaşlıq, xoş əhval-ruhiyyə, müsbət zehni hisslər (şadlıq, təlim sevinci, inam, təəccüb və s.) hakim olmalıdır (1, s.16).

Dərs həm də çevik qurulmalı, şablon və sxematizmdən uzaq olmalıdır. Dərs zamanı vəziyyətdən asılı olaraq, müəllim dərsin məzmununda, quruluşunda, vaxt bölgüsündə çevik dəyişikliklər aparmalıdır. Yaxşı dərs məntiqi və psixoloji cəhətdən tam olmalıdır, yəni dərsdə müəyyən bir məntiqi hissə öyrədilməli (məntiqi tamlıq), şagirdlər nəyi isə tam öyrəndiklərini hiss etməli, onlarda yarımçıqlıq hissi qalmamalıdır (psixoloji tamlıq). Dərsdə əks əlaqə yaradılmalıdır, müəllim şagirdlərin hissi aləmi, təlimə münasibəti, marağı, mənimsəmə səviyyəsi haqqında vaxtında informasiya əldə etməlidir. Göstərilən tələblərə cavab verən dərs yaxşı dərs hesab olunur; belə dərsdə yüksək səmərə, müsbət təlim-tərbiyə nəticələri əldə edilir. Müasir dərsin mühüm keyfiyyətlərindən biri onun yeni düşüncə, yeni pedaqoji təfəkkürün məhsulu kimi meydana çıxmasıdır. Müasir dərs həm də bəzi hallarda konkret vaxt çərçivəsini, struktur vahidliyini pozur. Dərs idarə olunan bir proses olduğundan onun məntiqi struktur cəhətdən bütövlüyü əsas şərtlərdən biri kimi yüksək dəyərləndirilir. Hər bir zamanın dərsi özlüyündə o dövr üçün müasir olub. Qeyd edək ki, artıq müəyyən qədər şablonlaşmış ənənəvi dərsdən fərqli olaraq müasir dərs müəllimdən daha çox yaradıcılıq, axtarış tələb edir. Yaradıcı axtarışalar dərsin formasından tutmuş fənn üzrə standartların reallaşdırılmasına, mövzu üzrə standartlara uyğun məqsədlərin müəyyənləşdirilməsinə, fəal təlim metodlarının seçilməsinə, dərsin hər bir mərhələsi üzrə işin təşkilinə, xüsusən də dərsin maraqlı alınmasında həlledici rol oynayan motivasiyanın yaradılmasına, tədqiqat sualının araşdırılması üçün istiqamətverici sualların tərtib olunmasına, qrupların müstəqil işi üçün tapşırıqların seçilməsinə və s. bütün məsələləri əhatə edir. Müasir dərsin təşkilində müəllimlər qeyri-ənənəvi dərs formalarından istifadə edərək dərsin daha da səmərəli keçməyini təmin edə bilər. Bu dərs formalarına dərs-mühazirə, dərs-ekskursiya, dərs-oyun, dərs-tapmaca, təbiət qoynunda dərs, dərs debat və s. göstərmək olar. Bu dərslərdən istifadə zamanı müasir təlim metodlarının seçilməsi də mühüm rola malikdir. İndi çoxlu sayda müasir təlim metodları, yeni tədris texnologiyaları, tədris resursları, xüsusən də elektron resurslar mövcuddur və onlar demək olar ki, hamısı müəllimlər üçün əlçatandır. Amma yaxşı dərs o deyildir ki, onda daha çox təlim

metod və üsullarından istifadə edilir, yaxşı o dərsdir ki, müasir metodlardan optimal, daha səmərəli istifadə olunur. Təlim prosesinin tədris və tərbiyə ilə vəhdətdə olması təhsil fəlsəfəsində mühüm anlayışlardan biridir. Təlim, tərbiyə ilə birlikdə, uşaqların şəxsiyyət kimi inkişafına, onların əxlaqi dəyərlərlə silahlanaraq cəmiyyətdə fəal iştirakına şərait yaradır. Buna görə də, təlim və tərbiyə bir-birini tamamlayan və qarşılıqlı olaraq bir-birinə təsir edən iki əsas amil kimi nəzərdən keçirilir. Təlim uşaqlara akademik bilikləri, bacarıqları və praktik vərdişləri qazandırırsa, tərbiyə onların əxlaqi, etik və sosial dəyərlərinin formalaşdırılmasına yönəldilir.

Bununla yanaşı, təlimin təşkilati formaları da təhsil prosesinin səmərəliliyini artırmaqda mühüm rol oynayır. Sinif-dərs sistemi bu gün təlimin ən geniş yayılmış forması kimi qəbul edilir. Sinifdə eyni yaş dövrünə və tədris səviyyəsinə malik şagirdlərin sabit tərkibi dərsin səmərəli keçirilməsinə imkan yaradır. Sinifdə təlim illik plan əsasında aparılır və dərsin əsas hissələri bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu ardıcıllıq və sistematiklik şagirdlərdə biliklərin mənimsənilməsini asanlaşdırır. Dərslərin hər biri müəyyən bir fənnə həsr olunur, burada müəllimin rolu ön plana çıxır. Müəllim təlim prosesində yönləndirici və idarəedici kimi çıxış edir və şagirdlərin diqqətini biliklərin öyrənilməsinə yönəldir. Bu sistemin əsas məqsədi uşaqların bilik səviyyəsini artırmaqla yanaşı, onları əmək və sosial həyata hazırlamaqdır (4, s.12).

Təlimin müasir formaları şagirdlərin dərsə marağını artırmaq, dərsin səmərəliliyini yüksəltmək və şagirdlərin təfəkkürünü inkişaf etdirmək məqsədilə müxtəlif yanaşmalar təklif edir. Fəal təlim metodları ənənəvi təlimdən fərqli olaraq, mövzuların tədqiqi və möhkəmləndirilməsini ön planda tutur. Bu dərs növləri şagirdlərdə tənqidi düşüncəni inkişaf etdirir və onları sual verməyə, araşdırmağa, nəticələr çıxarmağa sövq edir. Fəal təlimdə induktiv və deduktiv metodlar, problem həlli dərsləri, eləcə də inteqrativ yanaşmalar dərsin keyfiyyətini və səmərəliliyini artırmağa yönəldilir. Müxtəlif dərs növləri – yeni bilik verən dərslər, təkrar və ümumiləşdirmə dərsləri, biliklərin möhkəmləndirilməsi və yoxlama dərsləri – tədrisin məqsədindən asılı olaraq müəllim tərəfindən seçilir və tətbiq edilir. Dərsin müxtəlif formalarının səmərəli tətbiqi, şagirdlərin təlim prosesinə maraq və həvəsini artırır, müəllimin işini asanlaşdırır (5, s.18).

Dərsin təşkilində müəllim qarşısına qoyduğu məqsədlərə çatmaq üçün müəyyən tələblərə cavab verməlidir. Dərs prosesinin təşkilati mütəşəkkilliyi və çevikliyi müəllimdən böyük pedaqoji ustalıq tələb edir. Dərsin təşkilatında sinfin tərkibi, dərsin quruluşu və təlim metodlarının tətbiqi diqqət mərkəzində saxlanılmalıdır. Yaxşı dərs şagirdlərə fərəh və tədris sevinci bəxş etməli, onların intellektual və mənəvi inkişafını təmin etməlidir. Tədris prosesi zamanı şagirdlərin emosional vəziyyəti, onların təlimə marağı və dərsə münasibəti nəzərə alınmalı, sinifdə müsbət psixoloji iqlim yaradılmalıdır.

Müasir dövrdə təhsildə qeyri-ənənəvi dərs formalarına maraq artmaqdadır. Bu dərs formaları şagirdlərin dərsə marağını artırmaq və təlimin keyfiyyətini yüksəltmək məqsədilə daha yaradıcı yanaşmalar tələb edir. Müəllimlər müasir təlim metodlarından istifadə edərək dərsi daha maraqlı və səmərəli keçirməyə çalışırlar. Bu dərslərə dərs-oyun, dərs-tapmaca, dərs-mühazirə, ekskursiya və debat dərsləri aid edilə bilər. Müasir tədris texnologiyaları və elektron resurslar da müəllimlər üçün əlçatan olub, təlim prosesini daha interaktiv və maraqlı hala gətirir. Buna görə də, müasir dərs müəllimdən daha çox yaradıcılıq və axtarış tələb edir (2, s.17).

**Nəticə**

Təlim-pedaqoji ədəbiyyatlarda təlim, müstəqil pedaqoji proses olaraq bilik, bacarıq və vərdişlərin qazanılması ilə yanaşı, tərbiyə ilə birlikdə həyata keçirilən bir fəaliyyət kimi izah olunur. Təlim, uşaqların real gerçəkliyə uyğunlaşmasını və sosial həyata hazırlanmasını təmin edir.

Təlimin təşkilati formaları arasında sinif-dərs sistemi ən geniş yayılmışdır. Bu sistemin xüsusiyyətləri arasında eyni yaş dövrünə və hazırlıq səviyyəsinə malik şagirdlərin sabit tərkibi, illik plan əsasında dərslərin aparılması və müəllimin aparıcı rolu var. Dərs, təlim prosesinin əsas formasıdır, burada müəllim şagirdlərin fəaliyyətini yönləndirir və onların marağını artırır.

Dərsin tipləri müxtəlifdir, məsələn, yeni bilik verən, bilikləri möhkəmləndirən, yoxlama və inteqrativ dərslər. Hər bir dərsin öz məqsəd və tələbləri olur, bunlar təlimin səmərəliliyini artırmağa yönəldilir. Müəllimlər dərsləri interaktiv metodlarla, motivasiyalı suallarla və yaradıcı yanaşmalarla təşkil etməlidirlər.

## ƏDƏBİYYAT

1. Aliyev M. Təhsildə yeni yanaşmalar. Bakı: Elm, 2012, 250 s.
2. Həsənov R. Təhsil sistemində innovasiyalar. Bakı: Təhsil, 2013, 300 s.
3. İsmayılova S. Pedaqoji texnologiyalar. Bakı: Şərq-Qərb, 2016, 200 s.
4. Quliyev F. Təlim metodları: nəzəriyyə və praktika. Bakı: Nurlan, 2015, 350 s.
5. Məmmədov T. Təhsil psixologiyası. Bakı: Təhsil, 2017, 280 s.
6. https://www.scribd.com/document/651026784/4-Muhazir%C9%99-ATM-4-Yeni-2023

***Резюме***

***Айсель Амирова***

***Меняющиеся парадигмы высшего образования***

В педагогической литературе под понятием освоения знаний, умений и навыков как самостоятельного педагогического процесса, а также важности воспитания подчеркивается не только формирование знаний, умений и навыков, но и развитие моральных представлений. Обучение рассматривается как целенаправленная деятельность, осуществляемая через взаимодействие между учениками и учителями. Цель обучения – обеспечить адаптацию детей к реальной действительности, подготовить их к социальной жизни и трудовой деятельности. Системы классно-урочной организации являются самой распространенной формой обучения. Основные характеристики этой системы включают постоянный состав учащихся одной возрастной группы и одного уровня подготовки, проведение обучения на основе годового плана, определение каждого урока по конкретному предмету, ведущую роль учителя и регулярную смену отдыха для учащихся.

Урок является важной организационной формой образовательного процесса. Урок проводится под руководством учителя в определенных условиях класса и требует участия всех учеников. Для повышения активности учащихся на уроке должны быть созданы мотивации, а учитель должен организовать урок с активным и креативным подходом. Это направлено на развитие мышления учащихся, вовлечение их в самостоятельное мышление и решение проблем. Типы уроков разнообразны: уроки, вводящие новые знания, уроки закрепления знаний, повторения и проверки, интегративные уроки и т.д. Типы уроков варьируются в зависимости от педагогических подходов учителей и каждый из них должен быть организован в соответствии со своими целями и задачами.

Методы обучения являются важными для повышения эффективности урока. Современный урок, используя интерактивные методы, должен способствовать внутренней активности учащихся, их творчеству и поиску. Для обеспечения качественного урока организационные аспекты должны быть структурированными, должна быть создана позитивная психологическая атмосфера, а требования к уроку должны полностью выполняться. В современных уроках учителя должны использовать нетрадиционные формы уроков для повышения интереса учащихся и стремиться к более эффективному проведению занятий. Творческие поиски учителей на уроках обеспечивают их активное участие и в конечном итоге поддерживают академическое и социальное развитие учащихся.

**Ключевые слова:** *урок, обучение, педагогический процесс, класс, форма.*

***Summary***

***Aysel Amirova***

***Changing Paradigms of Higher Education***

In pedagogical literature, the concept of acquiring knowledge, skills, and competencies as an independent educational process emphasizes the importance of education. In this context, education is viewed not only as the formation of knowledge and skills but also as the development of moral values. It is seen as a purposeful activity that facilitates interaction between students and teachers. The primary objective of education is to enable children to adapt to real-life situations and prepare them for social and work environments. The class-lesson system is the most prevalent form of education. Its key features include a stable composition of students of the same age and preparation level, annual planning of instruction, the specification of each lesson for a particular subject, the prominent role of the teacher, and regular changes in student breaks.

Lessons are a vital organizational form of the educational process. Conducted under the guidance of a teacher, lessons require the participation of all students in a classroom setting. To enhance student engagement, motivational strategies should be implemented, and teachers must adopt an active and creative approach to lesson organization. This aims to develop students' critical thinking skills and encourage independent thinking and problem-solving. Various types of lessons exist, including those introducing new knowledge, reinforcing skills, reviewing, and integrative lessons. The types of lessons differ based on teachers' pedagogical approaches, and each should be organized according to its specific objectives and tasks.

Teaching methods are crucial for increasing lesson effectiveness. Modern lessons should incorporate interactive methods to foster student engagement, creativity, and inquiry. For a lesson to be of high quality, its organizational aspects must be well-structured, a positive psychological environment must be established, and all requirements should be fully met. By employing non-traditional lesson formats, teachers can boost student interest and strive for more effective instruction. Teachers' creative approaches during lessons ensure active participation, ultimately supporting students' academic and social development.


**Key words:** *lesson, training, pedagogical process, class, form*

Redaksiya heyətinin üzvü p.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.